**UOT 3;32.019.52**

# İDEOLOGİYA VƏ DEMOKRATİK CƏMİYYƏT QURUCULUĞU

**T.R.MƏMMƏDOV**
***Bakı Slavyan Universiteti***
***tural.888@yaho.com.***

*Milli müstəqillik şəraitində ölkəmiz hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolu ilə irəliləməkdədir. Bu prosesin uğurla həyata keçirilməsində mənəvi ideya, ideologiya amilləri əhəmiyyətli rol oynayır. Bu kontektsdə yanaşdıqda ideologiyanın güclü dövlət və demokratik cəmiyyət qurulucuğunda rolunun araşdırılması aktual səslənir.*

**Açar sözlər:** ideologiya, azərbaycançılıq, harmoniya, milli və beynəlmiləl, güclü dövlət, sivil cəmiyyət, liberalizm, neokonservatizm, sosial ədalət.

Fəlsəfə üzrə ümumdünya ensiklopediyasında yazılmışdır: "İdeya müxtəlif fəlsəfi sistemlərdə ruhun (biliyin) ən çox inkişaf etmiş formalarını göstərmək üçün geniş istifadə edilən anlayışdır" (1, 388). Fəlsəfi fikir tarixində ideya haqqında bir çox fikirlər söylənmişdir. Məsələn, İ.Kanta görə, ideya zəkanın anlayışıdır. Hissi təcrübədə bu anlayışa uyğun gələn heç nə yoxdur (2, 164). Lakin o, ideyaların hissi təcrübənin hüdudlarının fövqündə yarana biləcəyini inkar etmirdi. Bu keyfiyyətdə götürülən ideyaları İ.Kant idraka məqsəd verən prinsiplər kimi mənalandırırdı. Qeyd edək ki, ideyanın belə başa düşülməsi çox maraqlı və aktualdır. Çünki söhbət ideyanın insanın hər cür fəaliyyətinin məqsədini müəyyənləşdirməsindən gedir. Məqsədin ideyadan qaynaqlanması müddəasının qəbul olunması, bütövlükdə cəmiyyət miqyasında götürülən fəaliyyətin mahiyyətini daha aydın dərk etməyə imkan yaradır. Bu, həm də istənilən ictimai hadisəni izah etmək, insanların sosial fəaliyyətinin mənasını anlamaq baxımından böyük önəmə malikdir. Qeyd olunan elmi mövqedən çıxış etməklə ayrıca bir fərdin, sosial birliklərin, dövlətin, ümumiyyətlə, cəmiyyətin kollektiv varlıq kimi fəaliyyətində məqsədyönlülük prinsipinin yerini və rolunu aşkara çıxarmaq olar.

Məşhur alman filosofu Hegel göstərirdi ki, təbiət və cəmiyyətin bütün hadisələrinin mənbəyində mütləq ideya durur (3, 412). Mütləq ideya öz inkişafında üç mərhələni keçir. Birinci mərhələdə o öz məhvərində inkişaf edir. Bu mərhələdə ideya öz məzmununu açır. İkinci mərhələdə ideya təbiət

formasında inkişaf edir. Bu mənada təbiət ideyanın özünüinkişaf etdirməsinin xarici təzahürüdür. Üçüncü mərhələdə ideyanın inkişafı təfəkkürü və tarixi əhatə edir. Bu mərhələdə ideya insan şüurunun və fəaliyyətinin müxtəlif növlərində özünün həqiqi məzmununa gəlib çatır. Yəni Hegelə görə, insan fəaliyyəti və düşüncələri faktiki olaraq ideyanın müxtəlif təzahürləridir. Onun fikrincə, cəmiyyət kollektiv varlıq olaraq ideyasız mövcud ola bilməz, onun fəaliyyəti ideyanın məzmunudur. Deməli, Hegel cəmiyyətin hər bir sahəsindəki fəaliyyətə ideyanın özünüinkişafı kimi baxır. Bunu onun aşağıdakı fikrindən də görmək olar "tarix yalnız universal ruhun zaman daxilində inkişafından ibarətdir" (3, 263). O, bütövlükdə bəşəriyyətin , ayrılıqda isə hər bir cəmiyyətin tarixi təkamül prosesində, həm də sosial konteksdə sistemləşdirilmiş formada ifadə edilir. Bu mənada o, ideyanın özünün öyrənilməsi ilə onun tarixi tətbiqinin vəhdətidir. İdeya öz-özlüyündə, yəni insan fəaliyyətindən kənarda ideologiya yarada bilməz. İdeologiyanın insan fəaliyyəti ilə birbaşa bağlılığı, onun funksiyalarını müəyyənləşdirir. Başqa sözlə, ideologiya məhz öz funksiyaları vasitəsi ilə konkret məzmun və mahiyyət kəsb edir. İdeologiyanın insan fəaliyyətində özünü reallaşdırması, onun cəmiyyətdə oynadığı rolun təməlində durur. İdeologiya haqqında tarixən formalaşan fikirlər də bunu təsdiq edir. Cəmiyyət üçün ideologiyanın əhəmiyyətini və zəruriliyini Qərbdə ilk dəfə fransız filosofu Etyeni Kondilyak dərk etmişdir (4, 163). E.Kondilyak ideologiyanın cəmiyyətin inkişafında əsas güç olduğunu göstərməyə çalışmışdır. O, qeyd edirdi ki, ideologiya nəzəri konsept olaraq dövlətçilik fenomeni ilə sıx bağlıdır. İlk dəfə "ideologiya" terminini işlədən Destüt de Trasi (5, 227) və onu uğurlu idarəçiliklə əlaqələndirən K.A.Helvetsi (6) də problemə məhz bu aspektdə yanaşmışlar. Dövlət, özünə müvafiq ideologiya olmadan cəmiyyəti öz təsiri altında saxlaya bilməz.

İdeologiya sosial proseslərə necə təsir edə bilir? İdeologiya cəmiyyətin inkişafında hansı rolu oynayır? Bu məzmunda olan suallar daha maraqlıdır. Onların cavabı ümumilikdə bütün cəmiyyəti əhatə edir. Ona görə də ideologiyanın ictimai həyatda rolunu məhdud bir zaman çərçivəsinə salmaq yanlış bir yanaşmadır.

Söhbət müasir demokratik cəmiyyətdən getdikdə isə ideologiyanın mühüm rolu özünü daha dolğun şəkildə göstərir. Bunun konkret səbəbləri vardır. Başlıca məsələ ondan ibarətdir ki, demokratik cəmiyyətdə insan azadlığı geniş sosial məzmun kəsb edir və çoxtərəfli xarakter daşıyır. Bu bir tərəfdən fərdin sərbəstliyi, cəmiyyətin üzvi kimi azad həyat sürməsi, özünü inkişaf etdirmək üçün tam şəraitə sahib olması ilə bağlıdırsa, digər tərəfdən onun hüquqlarının qorunmasına, ictimai maraqlarla şəxsi maraqların nisbətinə, şəxsi azadlığın cəmiyyət miqyasında qəbul edilən dəyərlərə uyğunluğu və s. kimi zəruri amillərlə sıx əlaqəlidir. Çünki demokratik cəmiyyətdə fərdi azadlıqla yanaşı, cəmiyyəti birləşdirə bilən güclü faktorlara da kəskin ehtiyac vardır. Belə yanaşdıqda inteqrativ parametrlərin rolu daha da aktual məzmun alır. Əks halda cəmiyyətin bütövlüyünü qoruyub saxlamaq mümkün deyildir. Hər hansı

sistemin elementləri sərbəstdirsə, məzkəzdənqaçma meyillərini neytrallaşdıran göstəricilər olmalıdır ki, sistem mövcud ola bilsin və normal inkişaf etsin. Demokratik cəmiyyət üçün bunlardan əlavə hər bir vətəndaşın maraqlarına digər vətəndaşlar tərəfindən əməl olunması da çox vacib məqamdır. Bununla yanaşı, müasir cəmiyyətin digər cəmiyyətlərlə qarşılıqlı əlaqələrinin genişlənməsi və intensivləşməsi faktorunun ideoloji konseptin əhəmiyyətinə təsir göstərdiyi mütləq nəzərə alınmalıdır. Hazırda dünyanın bütün dövlətləri bir-biri ilə sıx qarşılıqlı əlaqədə və asılılıqda fəaliyyət göstərirlər. Çünki onlar təcrid olunmuş halda mövcud ola bilməzlər. Bu vəziyyət bir tərəfdən ənənəvi sosial, siyasi, mədəni və ideoloji dəyərlərin yeniləşməsini tələb edirsə, digər tərəfdən hər bir cəmiyyətin bütövlüyünü qorumaq işinin yeni əsasda qurulması zəruriliyini ortaya çıxarır. Qeyd olunan baxımdan müstəqilliyini əldə etmiş ölkələrin öz ideoloji konseptinə malik olması son dərəcə zəruri hal alır. Deməli, ideologiya həm milli özünəməxsusluğu, cəmiyyətin və dövlətin suverenliyini təmin etməyə, həm də qloballaşan dünyada başqa cəmiyyətlərlə harmoniyada yaşamağa imkan verməlidir. Bizcə, ideologiyanın müasir cəmiyyətlərdə oynadığı rolun əsas xüsusiyyətləri bu məqamla bağlıdır. Eyni zamanda, ideologiya müasir cəmiyyətlərin idarəedilməsində əvəzsiz yer tutur. Belə sosial sistemlərdə fərdlə kollektiv arasında sıx bağlılıq yarandığından, onların bir-birinə təsir dairəsi çox genişlənmişdir. İndi fərdi təşəbbüs bütünlükdə sosial mühiti ciddi surətdə yeniləşdirə bilir. Bunun səbəbi müasir tarixi mərhələdə cəmiyyətlərin tez-tez böhran durumuna düşməsi təhlükəsindən qaynaqlanır. Belə situasiyalarda ayrıca bir fərd bütün sosial sistemə güclü təsir göstərir və ümumi ictimai proseslərin yönünü dəyişə bilir. Bundan başqa kollektiv reallığın təbiəti elədir ki, onun idarə olunmasını məhdud sayda fərdin iştirakı ilə də təmin etmək mümkündür. Belə cəmiyyətdə lider və ya aparıcı rol oynayan insanlar əsas hesab olunur. Azsaylı insanların idarəçiliyin öhdəsindən gəlməsində müasir cəmiyyətlərdə kommunikasiyanın inkişafının daha çox önəm daşıdığı da qeyd olunmalıdır. Hazırda kommunikasiya texnologiyaları o dərəcədə inkişaf etmişdir ki, kütlələrin idarə edilməsi sahəsində yeni, incə, səmərəli və çevik üsullar tətbiq olunur. Təsadüfi deyil ki, XXI əsri humanitar əsr adlandırırlar. Son onilliklərdə ideologiyanın mahiyyəti milyonların idarəedilməsində oynadığı rolun humanist xarakteri ilə ölçülür. Deməli, ideloji konseptin struktur və funksional göstəricilərində də mühüm yeniləşmələr olmalıdır. Yəni ideologiya mütəhərrik ideyalara əsaslanmalıdır, qlobal təsir gücünə malik olmalıdır, təbliğat üçün asan tezislərdən təşkil edilməlidir. Bundan əlavə, regional və milli reallıqlarla, qlobal və beynəlxalq reallıqlar arasında ziddiyət yaratmamalıdır. Məsələnin bu tərəfi müstəqilliyini əldə etmiş ölkələr üçün daha əhəmiyyətlidir. Çünki bir tərəfdən milli özünəməxsusluğu saxlamaq və inkişaf etdirmək lazımdır, digər tərəfdən isə dünyanın ümumi inkişafı üçün səciyyəvi olan sosial-mədəni, siyasi, iqtisadi, mənəvi-əxlaqi və s. meyarlara uyğunlaşmaq gərəkdir. Bu iki cəhəti özündə birləşdirən ideoloji konsepti hazırlamağın özü asan problem deyildir. Ona görə ki, hər bir

cəmiyyətin dövlətçiliyinin tarixi təkamül ənənəsi vardır ki, onlara riayət edilməlidir. Burada müasir geosiyasi reallıqların diqtə etdiyi şərtləri nəzərə alınması zəruriliyini əlavə etdikdə bu məsələnin nə dərəcədə mürəkkəb olduğu haqda aydın təsəvvür yaranır. Buradan aydın olur ki, müstəqilliyini yeni əldə etmiş dövlətlərin səmərəli və müasir ideyalı ideologiyaya malik olması, onların qarşısında duran strateji vəzifələrdəndir. Deyilənlərlə əlaqədə iki vacib faktoru da qeyd etmək lazımdır. Onlardan birincisi, ideologiyanın öz funksiyasını yerinə yetirə bilməsi üçün lazım olan şərtlərin bərqərar olmasıdır. İkincisi isə ideologiyanı kütlələrə çatdıra bilən səmərəli təsir yolları və vasitələrinin müəyyənləşdirilməsidir. Hazırda ideologiyanın öz funksiyalarını yerinə yetirə bilməsi şərtlərinin təmin edilməsi, geniş planda sosial-mədəni, siyasi və iqtisadi islahatların aparılmasını tələb edir. Özlüyündə bu amillər cəmiyyətin total modernləşməsi prosesi ilə birbaşa bağlıdır. Bununla yanaşı onlara müstəqil proseslər kimi də baxmaq olar. Ölkəmizdə hazırda əsas yer tutan azərbaycan ideologiyasının öz rolunu yerinə yetirməsi imkanları pirizmasında həmin islahatlar sözün müəyyən mənasında avtonom xarakter daşıyan paramaetrlər kimi çıxış edir. Deməli, onların hər birinin ayrı-ayrılıqda, eləcə də digərləri ilə harmoniyada həyata keçirilməsindən ideoloji konseptin taleyi çox asılıdır. Bu sahələrin normal və mütənasib inkişaf etdirilməsi ümumiyyətlə cəmiyyətdə, sosail-mədəni, siyasi və iqtisadi ab-havanı dəyişir. Nəticədə insanların dünyagörüşü transformasiyaya uğrayır və onların yeni davranış qaydalarına yiyələnməsinə ehtiyac yaranır. Bu, ideologiyanın öz funksiyalarını genişləndirmək üçün çox mühüm məqamdır. Əgər ideoloji konsept bu məqsədə çatmağa imkan verirsə, bu halda onun səmərəli olduğunu söyləmək olar. Sözügedən məsələnin mahiyyəti ondan ibarətdir ki, ideologiya müasir tarixi şəraitdə cəmiyyətin konsolidasiyasını, bütövlüyünü təmin etməlidir. Problemin bu tərəfi cəmiyyətin demokratikləşməsi və qloballaşma prosesinin intensivləşməsi baxımından da böyük əhəmiyyət kəsb edir. Tarixi təcrübə göstərir ki, demokratikləşməyə xidmət edən modernləşmə prosesini aparan bəzi dövlətlərdə (məsələn, Latın Amerikası ölkələrində) ideologiya cəmiyyətin birliyini təmin edə bilmədiyindən, sosial-mədəni, siyasi və iqtisadi yeniləşmələr baxımından mənfi nəticələr törətmişdir. Həmin dövlərlədə cəmiyyəti birləşdirən parametrlərin sistemyaradıcı funksiyasını yerinə yetirə bilməməsi ucbatından müxtəlif sahələrdə institutlaşma prosesi başa çatmamışdır. Bütün bunlar modernləşmənin baş tutmadığını söyləməyə əsas verir. Deyilənlər həm də onu göstərir ki, islahatların aparılması cəmiyyətin müxtəlif sahələrini yeniləşdirsə də, onun ümumi tərəqqisində inteqrativ parametrlərin mövcud olması çox lazımdır. Məhz bu səpkidə yanaşdıqda ideologiyanın müasir tələblərə cavab verməsi çox gərəklidir. Əgər bu və ya digər ideologiyanın əsas tezisləri kənardan alınırsa, onda cəmiyyətin aqibətinin necə olacağını demək çətindir. Milli özəllikləri nəzərə alan ideoloji sistemin isə cəmiyyəti təkamülə aparacağı və burada demokratiyanı inkişaf etdirəcəyi aydındır.

Bununla əlaqədar olaraq ideologiyanın mahiyyətinin milyonlara çatdırılması üsullarının hazırlanması məsələsi xüsusi aktuallıq kəsb edir. Bunun üçün isə lazım olan səmərəli təsir vasitələri müəyyənləşdirilməlidir. Müasir tarixi mərhələdə bu, olduqca incə yanaşma tələb edən və mürəkkəb mexanizmə malik prosesdir. Burada problemin iki əsas aspektinin vəhdətini təmin etmək lazım gəlir. Birinci növbədə ideologiyanın qarşıda duran məqsəd ilə uyğunlaşdırılması, sistemli təsir mexanizminə malik olması zəruridir. Bu onunla şərtlənir ki, hər bir məqsəd sosial sistemin gələcəyinin aydın təsəvvür edilməsi əsasında formalaşır. Onda cəmiyyətin gələcəyinin aydın obrazı ifadə olunur. Həmin obrazın formalaşması isə bütövlükdə kollektiv şüur tərəfindən həyata keçirilir. Bu prosesin bir çox səpkiləri Milli ideyanın məzmunu ilə bilavasitə bağlıdır. Bu məqamda Məqsədlə İdeya bir-birilə qarşılıqlı asılılıqda çıxış edir – yəni İdeya üçün Məqsəd, Məqsəd üçün isə İdeya lazımdır. Bu dilemmanı həll edə bilən cəmiyyətlər düzgün modernləşə bilirlər. Ona görə də məqsədlə ideologiyanın uyğunlaşması ardıcıllıq prinsipindən daha çox bir-birini tamamlama, sistemli fəaliyyət göstərmə prinsipinə əsaslanır. Cəmiyyət üçün ümumi olan düzgün məqsədin müəyyənləşdirilməsi ilə ideologiyanın bu məqsədi təmin etməsi arasında ayrılmaz vəhdət vardır, bu tərəfləri yalnız abstraksiyada fərqləndirmək mümkündür. Ona görə də ideoloji konseptin tezislərinin milyonlara çatdırılması üsullarının hazırlanması, yalnız texniki və ya texnoloji məsələ deyildir, onun mühüm sosial məzmunu vardır. Buradan aydındır ki, müasir cəmiyyət üçün təbliğat adi sosial hadisə olamyıb, mürəkkəb struktur və total xarakter alır. Deyilənlər modernləşmə prosesində təbliğatla təşviqatın, sosial islahatlarla bu islahatların mahiyyəti haqqında kütlələrə dəqiq informasiyalar çatdırılmasının və Milli İnkişaf Strategiyasının düzgün müəyyənləşdirilməsinin vacibliyini sübut edir.

Müasir cəmiyyətlərdə ideologiyanın oynadığı rol ilə bağlı yuxarıda qeyd edilən məqamlar cəmiyyətin modernləşməsinin çoxparametrli proses olduğunu göstərir. Bu prizmada yanaşdıqda hazırda sosial həyatda daha çox yayılmış iki ideoloji sistemin müqayisəli təhlilini aparmaq lazım gəlir. Həmin ideologiyalar liberalizm və neokonservatizmdir. Bu ideoloji konseptlər Azərbaycan cəmiyyətinin modernləşməsi və dövlətçiliyin inkişaf perspektivləri baxımdan xüsusi diqqət çəkir. Məsələnin mahiyyəti Azərbaycanda müstəqil demokratik dövlət quruculuğu ilə vətəndaş cəmiyyətinin formalaşması arasında optimal uyğunluğun təmin olunmasından ibarətdir. Problemin bu səpkisi bizim üçün hansı ideologiyanın daha yararlı olması baxımından prinsipial əhəmiyyətə malikdir. Çünki vətəndaş cəmiyyətinin formalaşması demokratik dövlət quruculuğu ilə uyğun gəlməyəndə, qloballaşma prosesi cəmiyyəti assimilyasiyaya uğrada bilər. Ona görə də modernləşmə prosesi dövlətçiliklə vətəndaş cəmiyyətinin harmoniyasını təmin etməyi tələb edir. Məsələni bu müstəvidə nəzərdən keçirəndə ideoloji sistemin seçilməsinin çox önəmli olduğu aşkara çıxır. Beləliklə, liberalizm yoxsa neokonservatizm? Bu ideoloji cərəyanlardan hansı müasir Azərbaycan üçün daha uyğundur?

Yuxarıda aparılan müqayisəli təhlil göstərir ki, müasir tarixi mərhələdə dünyanın aparıcı ideologiyaları arasında əsas fikir ayrılığı kollektivçiliyə yoxsa fərdiçiliyə üstünlük verməsi ilə bağlıdır. Bu problemin həlli ilə bağlı müxtəlif variantlar təklif edilir və onlar geniş spektri əhatə edirlər. Liberalizmlə konservatizmin öz daxilində müşahidə edilən bir çox cərəyanlar, bu problemə münasibətin ayrı-ayrı məqamları üzrə fərqlənirlər. Məsələn, onlardan birində dövlətin cəmiyyətdə funksiyası daha geniş qəbul edilir, digərində isə sosial təminatlara üstünlük verilir, başqa birisində isə fərdi azadlıq bütün digər dəyərlərdən üstün sayılır. Sonra, kollektivçiliklə fərdiyyətçiliyin harmoniyasını ifadə edən idarəetmə üsuluna üstünlük verən baxışlar da mövcuddur. Burada sosial ədalət məsələsi mərkəzi yer tutur. Eyni zamanda, fərdi azadlığın sərhədləri, xalqın öz tarixinə bağlılığı, müxtəlif mədəniyyətlərin qarşılıqlı əlaqəsi və s. kimi məsələlər üzrə fərqli yanaşmalar vardır. Ulu öndər Heydər Əliyevin müasir tarixi şəraiti nəzərə alaraq hazırladığı və inamla həyata keçirdiyi müstəqil demokratik dövlət quruculuğu konsepsiyasının mahiyyətindən ölkəmiz üçün daha səmərəli olan ideologiyanın məhz neokonservatizm olduğu aydın görünür. Azərbaycan müstəqil, güclü demokratik dövlətə və dayanaqlı inkişaf edən cəmiyyətə malik olmalıdır. Bizim üçün sosial ədalət prinsipi də çox əhəmiyyətlidir. Azərbaycanın keçdiyi kəşməkəşli yol, hər şeydən öncə güclü dövlətin qurulmasının vacib olduğunu təsdiqləyir. Bütün bu məqamlar xalqımızın ümummilli lideri Heydər Əliyevin dövlət quruculuğu konsepsiyasında öz əksini tapmışdır. Neokonservatizmin müasir Azərbaycan üçün əsas ideoloji istiqamət kimi seçilməsi ilə bağlı akademik Ramiz Mehdiyevin fikirləri xüsusi maraq doğurur. Akademikin belə bir müqayisəsi diqqəti çəkir: "İdeya-nəzəri və siyasi baxımdan "azərbaycançılıq" və neokonservatizm bir-biri ilə sıx bağlıdır" (7, .22). Azərbaycançılıq ideoloji konsept olaraq həm demokratik dövlət quruculuğu, həm də vətəndaş cəmiyyətinin formalaşması üçün optimal sistemdir. Bununla bağlı Azərbaycanda bir sıra dəyərli təhlillər aparılmışdır. Onlar göstərir ki, azərbaycançılığın ideoloji sistem kimi daha geniş və dərindən tədqiq edilməsinə ehtiyac artmaqdadır. Eyni zamanda, bu ideoloji sistemin imkanları və perspektivləri ilə bağlı elmi araşdırmaları intensivləşdirmək lazımdır. Azərbaycançılığın milli inkişafla qloballaşma arasında uyğunluq yarada bilməsi, milli ilə beynəlmiləlin harmoniyası üçün geniş ideoloji əsasa malik olması heç bir şübhə doğurmur. Tanınmış ingilis mütəfəkkiri E.Erikson da ideologiyanı kollektiv identikliyin formalaşdığı əsas mühit hesab edir (8). Bu, elə bir mənəvi "təbəqədir" ki, fərdlə cəmiyyət arasında qarşılıqlı təsirləri tənzimləyir. Deməli, ideologiya həm ölkədaxili təkamüldə, həm də onun digər cəmiyyətlərlə əlaqələrinin tənzimlənməsində istiqamətverici funksiya yerinə yetirir. Həmin keyfiyyətdə azərbaycançılığın XXI əsrin ən perspektivli ideoloji konseptlərindən biri olduğunu demək olar. Azərbaycançılıq müasir tarixi mərhələdə dövlətçiliyin inkişafı ilə cəmiyyətin birliyinin optimal harmoniyasını təmin etməyə imkan verən yeganə ideologiyadır.

## ƏDƏBİYYAT


1. Всемирная энциклопедия по философии // Науч. ред. и сост. А.А.Грицанов. М.: АСТ, 2001, 1312 с.
2. Кант И. Собрание сочинений в восьми томах. М.: ЧОРО, 1994, 4592 с.
3. Гегель В. Феноменология духа. М.: Академический Проект, 2008, 767 с.
4. Богуславский В.М. етьен Бонно де Кондильяк. М.: Мысль, 1984, 173 с.
5. Дестют де Траси. Элементы идеологии. М., 1801 546 с.
6. Гельвеций К.А. О человеке, его умственных способностях и его воспитании. М.: Соцэкгиз, 1973, 483 с.
7. Mehdiyev R. Heydər Əliyev təlimi: dövlətçilik və azərbaycançılıq // Fəlsəfə və Sosial-siyasi elmlər. Elmi – nəzəri jurnal. Bakı, 2008, №2(20), s.11-29.
8. Эриксон Э. Идентичность: юность и кризис / Пер. с англ. Общ.ред. и предсил. Толстых А.В. М.: Прогресс, 1996, 344 с


## ИДЕОЛОГИЧЕСКОЕ ДЕМОКРАТИЧЕСКОЕ ОБЩЕСТВЕННОЕ СТРОЕНИЕ


**Т.Т.МАМЕДОВ**


## РЕЗЮМЕ


В статье анализируется роль идеологии в современном обществе. Идеология рассматривается как важный параметр общественной эволюции. В статье идеология характеризуется как «параметр порядка социума». Идеология в этом качестве является одним из основных рычагов в построении независимого государства и гражданского общества. В статье автор приходит к выводу о том, что азербайджанство по своей цели, содержании и идейной возможности является одним из самых перспективных идеологий XXI века.



**Ключевые слова:** идеология, азербайджанство, гармония, национальное и интернациональное, цивилизованное общество, либерализм, неоконсерватизм, социальная справедливость.


## IDEOLOGY AND DEMOCRATIC STATEHOOD


**T.R.MAMMADOV**


## SUMMARY


The article analyses the role of ideology in modern society. The ideology is being considered as an important public evolution. The article chacterizes the notion of ideology as “a parameter of regulation of a socium”. The term ideology in this quality is one of the basic levers in establishing an independent state and the civic society. The author comes to such a conclusion that Azerbaijanism, for its aim, content and ideological opportunities is one of the most perspective ideologies of the XXI century.



**Key words:** ideology, Azerbaijanism, harmony, national and international, powerful state, civil society, liberalism, neoconservatism, social unjustice.